# "İnsan Hüquqları Aylığı"na uğurla yekun vuruldu

**Hüquqi dövlət anlayışının mərkəzində duran əsas dəyər - insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsidir. Qanunun aliliyi, insan hüquq və azadlıqlarının müdafiəsi hər bir hüquqi dövlətin ali məqsədini təşkil etməlidir.**

Bu il anadan olmasının 102 illiyi xalqımız tərəfindən dərin hörmət və ehtiramla qeyd edilmiş dahi şəxsiyyət, Ümummilli Lider Heydər Əliyev ölkəmizdə insan hüquq və azadlıqlarının təmini sahəsində həyata keçirilən genişmiqyaslı hüquqi islahatların əsasını qoymuş, milli qanunvericilik bazası formalaşdırılmış, hüquqi dövlət və vətəndaş cəmiyyəti qurulmuş, insan hüquqları, o cümlədən həssas əhali qruplarının sosial-hüquqi müdafiəsi təmin edilmişdir. Ulu Öndərin bilavasitə rəhbərliyi ilə hazırlanmış ölkə Konstitusiyasının 1995-ci il 12 noyabr tarixində ümumxalq səsverməsi yolu ilə qəbul edilməsi müasir Azərbaycanın tarixində ən əhəmiyyətli nailiyyətlərdən biri olmuşdur.

Azərbaycan Respublikasının Əsas Qanunu olan Konstitusiyamızda insan və vətəndaş hüquq və azadlıqlarının, ölkə vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi təsbit olunmuşdur.

Prezident Heydər Əliyev tərəfindən 1998-ci il 22 fevral tarixində "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərman və 1998-ci il 18 iyun tarixində "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncamın imzalanması ilə insan hüquqlarının təmin edilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilmişdir. Dövlət Proqramında ilk dəfə olaraq insan hüquqları üzrə Azərbaycan Respublikasının səlahiyyətli müvəkkil təsisatının yaradılması ilə bağlı müddəalar da öz əksini tapmışdır.

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü, diqqət və qayğısı nəticəsində ölkəmizdə Ombudsman təsisatı yaradılmış, təsisatın səmərəli fəaliyyət göstərməsi üçün hüquqi və maddi-texniki bazanın formalaşdırılması istiqamətində kompleks tədbirlər görülmüşdür. Bu istiqamətdə 2001-ci il 28 dekabr tarixində "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanunu qəbul edilmiş, 2002-ci il 5 mart tarixində tətbiq edilməsi barədə Fərman imzalanmış, 2002-ci il 2 iyul tarixində bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr olunmuş, həmin ilin 28 oktyabr tarixindən isə Ombudsman Aparatında müraciətlərin qəbuluna başlanılmışdır.

Ümummilli Liderin siyasi kursunun layiqli davamçısı, möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə insan hüquq və azadlıqlarının müdafiəsi istiqamətində kompleks hüquqi islahatlar həyata keçirilmiş, yeni institusional mexanizmlər yaradılmış, milli fəaliyyət planları, proqramları və strategiyalar qəbul edilmişdir. Dövlətimizin başçısının 2007-ci il 18 iyun tarixli Sərəncamı ilə "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nın təsdiq olunduğu 18 iyun tarixi ölkəmizdə İnsan Hüquqları Günü kimi təsis edilmişdir. Sərəncamın imzalandığı gündən indiyədək bu tarix Azərbaycanda geniş qeyd olunur, müxtəlif tədbirlər həyata keçirilir. Bu əlamətdar gün ərəfəsində ənənəvi olaraq Ombudsman tərəfindən18 may - 18 iyun tarixlərində "İnsan Hüquqları Aylığı" elan olunur. Aylığın elan edilməsinin əsas məqsədi ölkədə həyata keçirilən hüquqi islahatlar barədə əhalinin məlumatlılıq səviyyəsinin artırılması, hüquq mədəniyyətinin inkişaf etdirilməsi, insan hüquq və azadlıqlarının daha səmərəli müdafiə edilməsidir. Xüsusilə bildirmək istərdim ki, "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş builki kampaniyada əsas mövzular qanunun aliliyi, hüquq mədəniyyəti, hüquqi məsuliyyət və inklüziv cəmiyyət prinsiplərinin təbliği məsələlərini əhatə etmişdir.

"İnsan Hüquqları Aylığı" çərçivəsində hər il olduğu kimi, bu il də həm paytaxt Bakıda, həm də respublikamızın regionlarında silsilə hüquqi maarifləndirici tədbirlər və müzakirələr təşkil edilmişdir. Belə ki, Aylıq çərçivəsində ilk olaraq Ombudsman və Azərbaycan Dillər Universitetinin birgə təşkilatçılığı ilə "Suverenlik və Konstitusiya: Gəncliklə Gələcəyə" mövzusunda forum keçirilmişdir. Tədbir zamanı Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə insan hüquqlarının təmini və müdafiəsi istiqamətində görülmüş işlər, habelə dövlət müstəqilliyimizin bərpasından sonra ilk milli Konstitusiyanın qəbul olunması və ölkəmizdə həyata keçirilmiş hüquqi islahatlar barəsində geniş məlumat verilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasında və ölkəmizin tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində fəaliyyət göstərən Ombudsman bütün digər hüquqlarla yanaşı, insanların bərabərlik hüququnun müdafiəsi və təşviqi sahəsində mühüm səlahiyyətlərə malikdir. "İnsan Hüquqları Aylığı"nda bərabərlik hüququnun təşviqi və ayrı-seçkiliyin aradan qaldırılması sahəsində ictimai məlumatlılığın artırılması zərurətini nəzərə alaraq sosial videoçarx hazırlanmışdır. Videoda ölkəmizdə əhalinin müxtəlif həssas qrupları da daxil olmaqla, bütün şəxslərin eyni hüquq və azadlıqlara malik olduğu, heç kimin qanunla müdafiə edilən və malik olduğu əlamətlərə görə ayrı-seçkiliyə məruz qalmasının yolverilməzliyi qeyd edilmişdir.

Eyni zamanda, videoçarxın geniş ictimaiyyətə təqdim edilməsi məqsədilə Azərbaycan Respublikası Audiovizual Şurası və Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi ilə birgə fəaliyyət həyata keçirilmiş, yerli televiziya kanalları və nəqliyyat infrastrukturuna daxil olan müəssisələr tərəfindən həmin videoçarx yayımlanmışdır.

Uşaq hüquqlarının qorunması və təmini Azərbaycan dövlətinin prioritet vəzifələri sırasındadır. Ombudsman uşaq hüquqlarının təşviqi və qorunması sahəsində geniş fəaliyyət həyata keçirir. Hər zaman olduğu kimi, bu Aylıq ərzində də uşaq hüquqlarının müdafiəsi üzrə tədbirlər davam etdirilmişdir. Belə ki, 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü ilə əlaqədar onların hüquq və azadlıqları barədə ictimai məlumatlılığın artırılması, cəmiyyətdə layiqli və fəal iştirakına töhfə verilməsi məqsədilə sosial maarifləndirici videoçarx hazırlanmışdır. Videoçarxda uşaqlara qarşı ayrı-seçkiliyin yolverilməzliyi, onların mənafelərinin üstünlüyü, sağlam, təhlükəsiz, qayğı ilə əhatə olunan mühitdə yaşamaq və inkişaf etmək hüququ həmçinin uşaqların fikirlərinə hörmətlə yanaşılması kimi mühüm prinsiplərin və bu istiqamətdə birgə fəaliyyətin vacibliyi əks olunmuşdur. Həmin əlamətdar günilə bağlı regionlarda uşaq hüquqlarının müdafiəsi sahəsində bir sıra aktual mövzulara həsr edilmiş hüquqi maarifləndirmə tədbirləri təşkil olunmuşdur.

Cəmiyyətdə hüquqi düşüncənin və hüquqi mədəniyyətin inkişaf etdirilməsi məqsədilə hüquqi maarifləndirmə işinin həyata keçirilməsi Ombudsmanın fəaliyyətinin mühüm istiqamətlərindən birini təşkil edir. Aylıq çərçivəsində Müvəkkilin təşəbbüsü ilə hərbi qulluqçular üçün "10 sual - 10 cavab" adlı maarifləndirici vəsait hazırlanmışdır. Vəsaitdə Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin yaranması, hərbi qulluqçuların vəzifələri, habelə Ombudsmanın insan hüquq və azadlıqlarının təmin edilməsi sahəsində həyata keçirdiyi fəaliyyət barədə sual-cavab formatında faydalı məlumatlar yer almışdır. Həmçinin, ayrı-seçkiliyin qarşısının alınması və bərabərlik hüququnun təmini sahəsində məlumatlılığın artırılması məqsədilə "Hüquqlarımızı bilək, ayrı-seçkiliyə məruz qalmayaq!" adlı maarifləndirici vəsait hazırlanaraq geniş ictimaiyyətə təqdim olunmuşdur. Bu vəsaitdə bərabərlik hüququ, ayrı-seçkilik, müvafiq sahələrdə beynəlxalq və milli qanunvericilik, habelə "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Konstitusiya Qanununa edilmiş dəyişikliklərlə Müvəkkilə verilmiş səlahiyyətlər barədə məlumatlar öz əksini tapmışdır.

Bununla yanaşı, "İnsan Hüquqları Aylığı" çərçivəsində Hüseyn Cavidin Ev-Muzeyində keçirilmiş "Sükuta məhkum edilən səslər" adlı tədbirdə iştirak etmişik. Tədbirdə repressiya qurbanı olmuş Hüseyn Cavidin nəşinin Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə ədibin ata-baba torpağı olan Naxçıvana gətirilməsinin mühüm əhəmiyyət kəsb etdiyi vurğulanmış, öz əzəli torpaqlarından didərgin düşmüş soydaşlarımızın təməl hüquqlarının bərpası istiqamətində qəbul olunmuş Qayıdış Konsepsiyasının Prezident İlham Əliyev tərəfindən insan hüquqlarına verilən ali dəyərin, həqiqət uğrunda repressiyalara məruz qalmış Hüseyn Cavid və onun timsalında minlərlə soydaşımızın haqq səsinin müdafiəsinin bariz göstəricisi olduğu qeyd edilmişdir.

Aylıq çərçivəsində Ombudsman Aparatının və Naftalan Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə burada "Konstitusiya və Suverenlik İli"nə həsr edilmiş maarifləndirmə tədbiri keçirilmişdir. Təşkil olunmuş tədbirdə insan hüquq və azadlıqlarının təşviqi, müdafiəsi və təmini vəziyyətinin monitorinqində Ombudsmanın rolu, informasiya əldə etmək hüququnun, bərabərlik hüququnun təmini, təbliği və ayrı-seçkiliyin qarşısının alınması sahələrində Müvəkkilin fəaliyyəti diqqətə çatdırılmış, təqdimatlar nümayiş olunmuşdur. Bundan başqa, Ombudsman Aparatı və Dövlət Sərhəd Xidməti (DSX) ilə birgə DSX Akademiyasında tədbir təşkil edilmişdir. Tədbirdə iştirakçılara mövcud milli qanunvericilik və beynəlxalq müqavilələr barədə təqdimatlar edilmiş, interaktiv diskussiya şəklində fikir mübadiləsi aparılmışdır. Müzakirələr zamanı insan hüquqlarının təmin olunması istiqamətində DSX-nin fəaliyyəti, saxlanılan şəxslərlə davranış qaydaları, Ombudsmana müraciət mexanizmləri kimi vacib mövzulara toxunulmuşdur.

"İnsan Hüquqları Aylığı" çərçivəsində növbəti maarifləndirici tədbir Ombudsman Aparatı və Xarici İşlər Nazirliyi (XİN) ilə birgə diplomatik xidmət orqanlarının nümayəndələri üçün XİN-də keçirilmişdir. Tədbirdə Müvəkkilin beynəlxalq əməkdaşlıq əlaqələri, BMT-nin insan hüquqları üzrə müdafiə mexanizmləri, humanitar hüquq normalarının implementasiyası barədə geniş məlumat verilmiş, mövzu ətrafında interaktiv müzakirələr aparılmışdır.

Əhalinin həssas qruplarının hüquqlarının müdafiəsi və təmin olunması Ombudsmanın daim diqqət mərkəzindədir. Aylıq zamanı Milli Preventiv və Müstəqil Monitorinq mexanizm qruplarının üzvləri tərəfindən Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin Həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsinə başçəkmə həyata keçirilmiş, müəssisədə rəftar məsələləri və mövcud şərait araşdırılmış, müəssisə sakinləri ilə fərdi söhbətlər aparılmış, Ombudsmanın səlahiyyəti barədə ətraflı məlumatlar verilmiş və maarifləndirici çap vəsaitləri təqdim olunmuşdur.



Səbinə ƏLİYEVA,
Azərbaycan Respublikasının
İnsan Hüquqları üzrə Müvəkkili
(Ombudsman),
hüquq üzrə fəlsəfə doktoru.

"İnsan Hüquqları Aylığı" ərzində Ombudsmanın Milli Preventiv və Müstəqil Monitorinq mexanizminin fəaliyyəti çərçivəsində Elm və Təhsil Nazirliyinin, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan, o cümlədən Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Yetkinlik Yaşına Çatmayanlar üçün Penitensiar Müəssisəsi də daxil olmaqla 15 müəssisədə maarifləndirici tədbirlər həyata keçirilmişdir.

Xarici ölkədə çətin həyat şəraitində yaşayan vətəndaşlarımızın repatriasiyası, habelə onların hüquq və azadlıqlarının təmin olunması məsələləri də hər zaman diqqətdə saxlanılır. 2025-ci il 3 iyun tarixində 9-u uşaq olmaqla daha 13 Azərbaycan Respublikası vətəndaşının Suriya Ərəb Respublikasından ölkəmizə repatriasiyası həyata keçirilmişdir. Aylıq ərzində Ombudsman Aparatının əməkdaşları Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin sosial xidmət müəssisəsinə yerləşdirilmiş həmin repatriantlarla görüş keçirmiş, onların hüquqlarının müdafiəsi, həmçinin sosial, səhiyyə, təhsil, məşğulluq və digər müvafiq dövlət xidmətlərindən istifadəsi ilə bağlı tövsiyələr verilmişdir. Eyni zamanda, Ombudsman Aparatının nümayəndələri Aylıq ərzində DOST TV-nin "Ekspert Rəyi" verilişində, "Azərbaycan Respublikasının təbii sərvətləri xalqın rifahına və ölkənin çiçəklənməsinə xidmət edir", "Azərbaycan Respublikasının Konstitusiyası suverenliyin və insan hüquqlarının təmin olunmasında mühüm hüquqi bazadır", eləcə də əhalinin həssas qruplarının, o cümlədən uşaqların, əlilliyi olan şəxslərin, qadınların, ahılların hüquqlarının müdafiəsi, Milli Preventiv Mexanizm fəaliyyəti, ayrı-seçkiliyin qarşısının alınması, bərabərlik hüququnun təmini və digər mövzularda keçirilmiş tədbirlərdə iştirak etmişlər.




Ümumilikdə dövlət orqanları, bələdiyyələr, təhsil və mədəniyyət müəssisələri, tibb və sosial xidmət qurumları, vətəndaş cəmiyyəti institutları və digər aidiyyəti qurumlar Aylıq çərçivəsində keçirilmiş tədbirlərə fəal qoşulmuş, sosial şəbəkə hesablarına tərəfimizdən təqdim edilmiş həştəqlərlə həyata keçirilən tədbirlər və maarifləndirmə fəaliyyətləri barədə məlumatları əlaqələndirməklə geniş ictimaiyyətə təqdim etmişlər. Belə ki, "İnsan Hüquqları Aylığı" çərçivəsində həmin qurumlar tərəfindən "Azərbaycan Konstitusiyası insan hüquq və azadlıqlarının, vətəndaş rifahının təminatına xidmət edir", "İnsan hüquq və azadlıqlarının təbliği", "İş yerlərində əməyin mühafizəsi", "Uşaqların əmək hüquqları, məcburi əmək və insan alverinin qarşısının alınması", "Məişət zorakılığını doğuran səbəblər və onların həlli yolları", "Ailə dəyərləri, sağlam ailə, sağlam cəmiyyət", "Qanun və Hüquqların Əsasları", "Fərdi məlumatların mühafizəsi" və insan hüquqlarına dair müxtəlif aktual mövzularda maarifləndirici tədbirlər keçirilmişdir.

"İnsan Hüquqları Aylığı"nın yekunu olaraq iyunun 18-də Bakı şəhərində "Konstitusiya və Suverenlik İli" və 18 İyun - Azərbaycan Respublikasında İnsan Hüquqları Gününə həsr olunmuş "Qanunun aliliyinin gücləndirilməsi: ombudsmanların və milli insan hüquqları institutlarının rolu" mövzusunda Ombudsmanların Beynəlxalq Simpoziumu təşkil olunur. On beşədək ölkədən ombudsman və milli insan hüquqları təsisatlarının rəhbərləri və nümayəndələri, dövlət orqanlarının yüksək vəzifəli şəxsləri, deputatlar, beynəlxalq təşkilatların, vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin iştirak etdiyi tədbirdə insan hüquqları sahəsində beynəlxalq əməkdaşlığın gücləndirilməsi istiqamətində müzakirələrin və müsbət təcrübə mübadilələrinin aparılması nəzərdə tutulur.

Müvafiq tədbirlərin təşkilinə, mediada və sosial şəbəkələrdə bu mövzunun təbliğində göstərilmiş fəallığa, eləcə də verilmiş töhfələrə görə bütün aidiyyəti qurumlara təşəkkürümü bildirirəm. Ümid edirəm ki, dövlətin ali məqsədi olan insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması istiqamətində qurumlarla mövcud əməkdaşlıq bundan sonra da fəal şəkildə və uğurla davam etdiriləcək, ölkəmizdə hüquq sisteminin davamlı olaraq təkmilləşdirilməsinə mühüm töhfələr veriləcəkdir. ■